***...Milli Hidrometeorologiya Departamentinin payızın ilk ayının ilk günlərində havanın dəyişəcəyi barədə verdiyi proqnoz özünü doğrultdu. Zaqatalaya yağış yağdı. İnsanların da, təbiətin də aylarla gözlədiyi bu yağmurun və küləyin tamamilə fəsadsız ötüşməsi hamının sevincinə səbəb oldu. Çünki yağışdan əvvəl deyilirdi ki, bu qədər davam edən istilərdən sonra mütləq leysanlar olacaq, çaylar daşacaq və sairə. Ancaq havanın dəyişməsi Zaqatalanı bir qədər də gözəlləşdirdi. Dağlar yuyundu, ağaclar gözəlləşdi, insanlar rahat nəfəs aldı, qurumaqda olan çaylara su gəldi, təbiət sevindi.***

# Zaqatala: Hər addımda inkişaf, hər sahədə uğur var



Rayonun həyatındakı müasirləşmə, hərtərəfli inkişaf, sosial xidmətdəki yeniliklər, zamanın çağırışlarına uyğun davam etdirilən tərəqqi isə günün reallıqlarıdır. Yadımdadır, bir neçə il əvvəl Zaqatalada olan Prezident İlham Əliyev – o, vaxtaşırı bu rayona səfərlər edir – demişdi ki, ümumiyyətlə, Zaqatala rayonunun çox böyük sənaye, kənd təsərrüfatı potensialı var. Rayonun inkişafına xüsusi diqqət göstərilir: "Bu, mənim Prezident kimi, Zaqatala rayonuna səkkizinci səfərimdir və hər bir səfər zamanı önəmli obyektlərin açılışında iştirak etmişəm. Burada



həm sosial obyektlər, həm sənaye müəssisələri istifadəyə verilib, Zaqatala aeroportu tikilib. Diaqnostika Mərkəzi, rayonun mərkəzi xəstəxanası, Olimpiya Kompleksi, məktəblər, zəlzələdən sonra 8 mindən çox ev tikilib təmir edilmişdir. Yollar salınır, istehsalat sahələri istismara verilir. Tütün fabrikinin yenidən qurulması nəticəsində həm istehsal gücü artıb, həm də indi bu müəssisədə son məhsul istehsalını təmin etmək mümkündür. O cümlədən qızılgül sahəsində də yaxşı inkişaf var".



Yeni Zaqatalanın hərtərəfli inkişafı təkcə yerli sakinlər, qonaqlar, mətbuat təmsilçiləri və turistlər tərəfindən deyil, ölkə rəhbərliyi, dövlət başçısı tərəfindən də yüksək qiymətləndirilir. Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə söhbətimizdə də bu məqam əsas mövzulardan biri oldu. Həmsöhbətim xüsusilə vurğuladı ki, bu gün zaqatalalılar təkcə rayonumuzun inkişafına və şöhrətinin daha geniş miqyasda yayılmasına çalışmırlar, onlar həm də gündən-günə çiçəklənən Azərbaycanın uğurlarına öz töhfələrini əlavə etmək üçün ciddcəhdlə səy göstərirlər. Özü də, uşaqlı- böyüklü, qocalı-cavanlı, qadınlı-kişili bütün sakinlərimiz belə düşünürlər.

Rayon rəhbəri bu məqamda bir faktı fəxrlə yada salaraq əlavə etdi ki, zaqatalalı gənclər 44 günlük Vətən müharibəsində bundan qat-qat böyük uğurlara imza atsalar da, yeniyetmə həmyerlimiz, Mosul kənd sakini, milli yığmanın üzvü İslam Rəhimovun Latviyada keçirilən cudo üzrə qitə çempionatında erməni idmançı Samvel Qriqoryanı məğlub edərək Avropa çempionu adını qazanması bütün zaqatalalıların böyük sevincinə səbəb oldu: " İslam çempion adını avqustun on yeddisində qazanmışdı. Biz isə ayın 30-da onu möhtəşəm uğuru münasibətilə təbrik etdik. Həmyerlimizin həmin adı qazanması ölkəmizdə aparılan uğurlu idman siyasətinin parlaq nəticələrindən biridir".

Mübariz müəllim xatırlatdı ki, gənclərin istənilən uğurunun təməlində dövlətin yetişməkdə olan nəslin inkişafına göstərdiyi qayğı və diqqət dayanır. Qətiyyətlə deyə bilərik ki, zaqatalalı uşaqlar da həmin qayğını



yüksək səviyyədə görürlər. Yeri gəlmişkən, bu ilin noyabrında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Regional İnkişaf İctimai Birliyi və BMT-nin Uşaq Fondunun birgə təşkilatçılığı ilə Bakıda keçiriləcək Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunda iştirak edəcək nümayəndələrin seçimi məqsədilə avqustun 26-da Zaqatala rayonunda da xüsusi tədbir təşkil olunub. Zaqatala Uşaq və Ailələrə Dəstək Mərkəzində keçirilən seçim mərhələsində sosial fəallığı ilə seçilən və fikirlərini sərbəst şəkildə ifadə etməyi bacaran 20 namizəd uşaq iştirak edib. Seçim aparılarkən, ilk növbədə, uşaqların liderlik, təşəbbüslə çıxış etmək, insanlarla ünsiyyət qurmaq, şəbəkə yaratmaq bacarıqlarına diqqət yetirilib, gələcək planları barədə fikirləri öyrənilib. Bütün bunlar isə Prezident İlham Əliyevin məsul şəxslərin qarşısına qoyduğu əsas vəzifələrdən biridir.

Təbii ki, Zaqatala həm də ölkənin əsas kənd təsərrüfatı rayonlarından biridir. Ona görə də burada ənənəvi və ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı daim diqqət mərkəzində saxlanılır. Kənd Təsərrüfatı naziri İnam Kərimovun avqustun 20-də Zaqatalada məhsul yığımının gedişini izləməsi, tədarük məntəqələrində məhsulun qəbul prosesi ilə tanış olması da bu rayondakı aqrar sektorun inkişafının diqqət mərkəzində saxlanılmasının göstəricisi idi. Xatırladaq ki, bu il rayonda 588,7 hektar sahədə tütün əkilib. Ötən il rayon üzrə orta məhsuldarlıq 11,7 sentner təşkil edib. Bu il məhsuldarlığın daha çox olacağı gözlənilir.

Nazirin aqrar sektor təmsilçiləri ilə keçirilən görüşündə tütünçülüyün inkişafına dövlət dəstəyi mexanizmləri, fermerlərin davamlı şəkildə təlimlərə cəlb olunması, tütün şitilçiliyinin təşkili, tütünçülükdə dəyər zəncirinin formalaşdırılması, keyfiyyətli məhsul istehsalı və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Bundan başqa, rayon fermerlərinin əsas fəaliyyət istiqamətlərindən olan fındıqçılığın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər də ürəkaçandır. İcra hakimiyyətində bildirildi ki, rayonda 20183,4 hektar fındıq bağı mövcuddur, bunlardan 13183 hektarı bar verən bağlardır. Məhsulun erkən yığımı fındığın keyfiyyətinə mənfi təsir edir. Eyni zamanda, erkən yığım ağacların strukturunu zədələyir, nəticədə növbəti illərdə bağlarda orta məhsuldarlıq aşağı düşür. Bu səbəbdən Kənd Təsərrüfatı Nazirliyi yerlərdə fındığın erkən yığımının mənfi təsirləri ilə bağlı fermerlər arasında davamlı maarifləndirmə işləri aparır. Görülən işlər nəticəsində fındıqçılıq rayonlarında erkən yığım faizi



kifayət qədər azalıb.

Zaqatalanın ənənəvi aqrar sahələrindən biri də arıçılıqdır. Cari ilin ötən dövrü ərzində Zaqatala rayonu üzrə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 34 min 37 arı ailəsi qeydiyyata alınıb. Hazırda rayonda 1482 təsərrüfatçı arıçılıqla məşğul olur. Arıçılığın inkişafına dövlət dəstəyinin nəticəsidir ki, bu ilin ötən dövründə rayonda arıçılıq təsərrüfatlarının sayı əvvəlki illə müqayisədə 37 təsərrüfat, arı ailələrinin sayı isə 2020 ailə artıb. Fermer Mövləddin Qurbanəliyevin arıçılıq təsərrüfatı bu sahədə özünəməxsus uğurlar qazanıb. Bundan başqa, Qafqazda ilk dəfə olaraq Zaqatala rayonu ərazisində dağlıq zonada damazlıq arı ailələri üçün təcrid zonası yaradılıb. Təcrid zonasında hazırda yüzədək arı ailəsi saxlanılır, zonada əldə olunan məhsuldarlıq 30 kiloqramın üzərindədir. Təsərrüfatda arılara qulluq sırf orqanik istehsalın tələblərinə uyğun aparılır. Qeyd edildi ki, rayonun arıçılıq təsərrüfatlarında il ərzində 300 tonadək bal, 40 ton mum, 500 kiloqram çiçək tozu, 200 kiloqram vərəmum, 15 kiloqramadək arı südü və digər məhsullar istehsal olunur. Rayonun təbii iqlim şəraiti arıçılıq məhsulları istehsalının artırılmasına imkan verir.

Rayonun ixracyönümlü kənd təsərrüfatı sahələrindən biri də baramaçılıqdır. Zaqatala bu il yaş barama istehsalının həcminə görə respublikada ilk yerlərdən birini tutur. Kümdarlar 2021-ci ildə 43,4 ton yaş barama istehsal edərək qəbul məntəqələrinə təhvil veriblər. Ötən il Zaqatalada müasir standarlara cavab verən baramaqurutma müəssisəsi inşa olunub. Bu il həmin məntəqədə ilk dəfə məhsul tədarükü həyata keçirilib.

Söylədiyimiz faktlar və rəqəmlər bu ilin göstəriciləridir. Ancaq fermerlərin gördüyü bəzi işlər gələn ilin məhsulu üçündür. Məsələn, öyrəndik ki, gələn ilin taxıl məhsulu üçün bu ilin payızında 11 min hektaradək sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır. Qısa müddətdə təsərrüfatlarda iki min hektara yaxın sahədə yay şumu qaldırılıb və bu iş davam etdirilir. Səpin aparılacaq sahələrin şumlanmasına 72 şum traktoru cəlb olunub.

Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Vaqif Şabanov söylədi ki, payızlıq bitkilərin səpininə sentyabrın üçüncü ongünlüyündə başlamaq nəzərdə tutulur. Xatırladaq ki, builki mövsümdə zaqatalalı fermerlər 11 min 396 hektar taxıl sahəsindən 38 min 916 ton məhsul götürüblər. Hər hektara görə orta məhsuldarlıq 34,1 sentner olub.Taxıl istehsalı əvvəlki illə müqayisədə 3,8 min tondan çox artıb.

Məlum olduğu kimi, ölkədə aqrar sektorun daha da inkişafını təmin etmək üçün atılan addımlardan biri də sahibkarlığın inkişaf etdirilməsi və həmin proqram çərçivəsində sahibkar qadınların fəaliyyətinin stimullaşdırılmasıdır. Zaqatalada da bu istiqamətdə müvafiq işlər görülür. Rayon icra hakimiyyətində öyrəndik ki, avqustun son günlərində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Azərbaycan ofisi tərəfindən həyata keçirilən "CIAT Paylaşımdır" Proqramı çərçivəsində Zaqatala şəhərində 13 saylı Ərazi Vergilər Baş İdarəsinin dəstəyi ilə "Sahibkar qadınların vergi biliklərinin artırılması" mövzusunda növbəti təlim keçirilib. Bu tədbirə təkcə zaqatalalılar deyil, ümumiyyətlə, bölgəni təmsil edən 50-dən artıq qadın sahibkar qadın qatılıb. Təlimlərdə sahibkarların sualları cavablandırılıb, onları maraqlandıran məsələlərlə bağlı müzakirələr aparılıb.

Su aydınlıqdır, deyiblər. Günəş isə həyatın əbədiliyini təmin edən gücdür. Elə bu yazının sonunda da Zaqatalada su ilə bağlı həyata keçirilən bir tədbiri yada salmaq istəyirik. Maraqlı məqam isə odur ki, rayonun Zəyəm kəndinə içməli su çəkilməsi Gündoğar ölkənin – Yaponiya hökumətinin dəstəyi ilə reallaşdırılıb. Xatırladaq ki, Yaponiyanın Azərbaycandakı səfirliyi ilə Zaqatala Rayon İcra Hakimiyyəti arasında əməkdaşlıq 2007-ci ildən uğurla davam etdirilir. Dost ölkənin qrant yardımı proqramı çərçivəsində indiyədək bu rayonda məktəb tikintisi, tibb və ekologiya, su təchizatı və digər sahələri əhatə edən 10-dək layihə reallaşıb. Artıq bu layihələrin sonuncusu da həyata keçirilib. "Zaqatala rayonunun Zəyəm kəndində içməli su təchizatı sisteminin inşası" layihəsi üzrə ayrılan 54 min 453 ABŞ dolları qrant bu kəndin iki min nəfərədək sakininin su problemini həll edib.

... Bəlkə bu da bir bəxtdir. Bölgənin ən gözəl rayonlarından biri haqqında qələmə aldığımız sətirlər yağışla başlandı, içməli su ilə tamamlandı. Arzu edirik ki, Zaqatalanın yağışı xeyirli, suyu sərin, qonaqları isə daha çox olsun!

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***